# BƏSTƏKARIN MAHNI TÖHFƏSİ

1998-ci ilin iyun ayının əvvəlləri idi. Azərbaycan Dövlət Musiqili Komediya Teatrı yenicə öz təzə tikilmiş binasına köçmüşdü. Mən səbirsizliklə teatrın bədii şurasının yığıncağını gözləyirdim. Axı, teatra yenicə tamamladığım Abdulla Şaiqin komediyası əsasında yazdığım "Bir saat xəlifəlik" operettamı təqdim etmişdim. Həmin günlərdə mən Abdulla Şaiqin oğlu — görkəmli alim, akademik Kamal Talıbzadəyə rast gəldim və ona bu haqda mə'lumat verdim. O, öz razılığını bildirib qovluğundan bir vərəq çıxardıb mənə uzadaraq, dedi: "Bu şe'ri atam indiki pedaqoji universitetin yaranması münasibətilə 1921-ci ildə yazmışdı. Şe'ri Üzeyir bəyə vermişdi ki, o tələbələr üçün marş bu günədək nə dahi bəstəkarın arxivində, nə də ki, institutda qorunub saxlanılmayıb..." Çox heyif! Kamal müəllimin arzusu o oldu ki, mən həmin şe'rə musiqi bəstələyim. O, axırda qeyd elədi ki, bu qocaman ali məktəbin yaxınlarda 80 illik yubileyi olacaqdır. Mən hörmətli akademikə həmin şe'rə — "Gənclik marşı"na musiqi bəstələyəcəyimi və'd etdim. Elə həmin il, yə'ni 1998-ci il iyunun 27-də mən öz və'dimi yerinə yetirdim. Telefonla bu haqda Kamal müəllimi muştuluqladım ki, marş hazırdır. O, sevincək bir səslə mənə öz təşəkkürünü bildirdi...

Bu il böyük ədibin, uşaq dramaturgiyasının banisi, görkəmli şair və pedaqoq Abdulla Şaiqin anadan olmasının 120 illik yubileyidir. Azərbaycan Prezidenti Heydər Əliyevin bu haqda verdiyi sərəncam buna parlaq misaldır. Elə bu yay — iyunun 26-da Abdulla Şaiqin komediyası əsasında bəstələdiyim "Bir saat xəlifəlik" operettamın ilk tamaşası da musiqili komediya teatrının səhnəsində uğurla ifa olundu. Kamal Talıbzadə premyera vaxtı məndən "Gənclik marşı"-nın taleyi ilə də maraqlandı. Mən düz 3 il öncə öz və'dimi yerinə yetirdiyimi ona xatırlatdım. O, bu marşı institutun musiqi pedaqoji fakültəsinin xoruna öyrətməyi və yaxud notunu çatdırmağımı xahiş etdi. Mən hörmətli akademikin bu arzusunu məmnuniyyətlə yerinə yetirirəm və qəzetinizin vasitəsilə onu, yə'ni "Gənclik marşı"nın notunu və şe'rini Tusi adına Azərbaycan Dövlət Universitetinin 80 illiyi münasibətilə təbrik edir, öz mahnı salamımı çatdırıram.

Qoy, Abdulla Şaiqin 80 il öncə yazılmış sözlərinə "Gənclik marşı" Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin himninə çevrilsin!

**Rəşid ŞƏFƏQ.**

## GƏNCLİK MARŞI

***Musiqisi Rəşid Şəfəqin, sözləri Abdulla Şaiqindir.***

Bizik bilik, şan ordusu, Azərbaycan ordusu,
Qaranlıqlarla çarpışan ölm, ürfan ordusu!

Sevgi, ateş ocağıdır Azərbaycan ölkəmiz,
Şərqə, Qərbə işıq saçan, ateş yapan bizik, biz!
İgidlikdə, hər sənətdə ad çıxarmış nəslimiz,
Bizik bilik arxaşınca gedən, ön, şan ordusu!

Köhnə, çürük qüvvələri parçalayıb yıxan biz,
Şimşək kimi parıldayan, ildırımtək çaxan biz.
Daşqın, coşqun sellər kimi hər tərəfə axan biz,
Bizik nurlu aləm quran, azad insan ordusu!

Üstümüzdə dalğalanır nur saçaqlı bayrağımız,
Elmsizlik istibdaddır, bizim böyük yağımız.
Yorulmadan çarpışaq ki, parlasın ocağımız,
Bizik qaranlığı qovan, nur saçan dan ordusu!

Bizik bilik, şan ordusu, Azərbaycan ordusu,
Qaranlıqlarla çarpışan elm, ürfan ordusu!

